BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2015*

UOT 94 (479.24 )

# MİR CƏFƏR BAĞIROVUN HAKİMİYYƏTDƏN UZAQLAŞDIRILMASI

**G.Y.ƏŞRƏF**
***Bakı Dövlət Universiteti***
***gulnareeshref666@gmail.com.***

*Məqalədə əsasən XX əsrin 50-ci illərinin əvvəllərində Stalinin ölümündən sonra rəhbərliyin yenilənməsi və bununla əlaqədar olaraq Azərbaycanın siyasi həyatında dəyişikliklərin baş verməsi göstərilir. Mir Cəfər Bağırov dövrünün tənqid edilməsi ilə bağlı məsələlərə diqqət yetirilir. Son illərin əldə edilmiş arxiv materiallarına əsasən M.C.Bağırov şəxsiyyəti müəllif tərəfindən müsbət rəhbər kimi qiymətləndirilir.*

**Açar sözlər:** Azərbaycan K(B) P, xalq düşməni, şahid, rəhbər, məhkəmə, köçürmə, plenum, rəhbərlik

1953-cü il mart ayının 5-də Stalinin vəfatından sonra ”respublikamıza və respublika partiya təşkilatına münasibət” kökündən dəyişdi. 1953-cü il mart ayının 15-də Sov.İKP MK-nın plenumunun və SSRİ Ali Soveti altıncı sessiyasının qərarlarına müvafiq olaraq, Azərbaycanda da kadr dəyişiklikləri baş verdi. M.C.Bağırov Azərbaycan SSR Nazirlər Sovetinin sədri təsdiq edildi. Həmin il aprel ayının 6-da Azərbaycan KP MK bürosunun qərarı ilə Bakı və Gəncə vilayətləri ləğv olundu. Gəncə Vilayət Partiya Komitəsinin birinci katibi İman Mustafayev Azərbaycan KP MK katibi vəzifəsinə, Vilayət İcraiyyə Komitəsinin sədri S.Rəhimov Kommunal Təsərrüfatı Mənzil-Mülki Tikinti naziri təyin edildi (5, 346).

1953-cü ilin iyununda L.P.Beriyanın xarici kapitalın mənafeyi naminə sovet dövlətini sarsıtmaq, hakimiyyəti ələ almaq, sovet fəhlə-kəndli quruluşunu dağıtmaq, burjua hakimiyyətini bərpa etmək məqsədilə SSRİ hökumətini və Sov. İKP-ni Daxili İşlər Nazirliyindən asılı vəziyyətə salmaq cəhdləri dövlət, partiya əleyhinə cinayətkar fəaliyyət kimi MK tərəfindən ifşa edilmişdir. Beriya və onun yaxın əlaltılarının ifşası ilə əlaqədar olaraq sui-qəsdçi qrupun başçılarının Beriyanın digər həmməslәkləri ilə əlaqələri araşdırılmağa başlandı. Məlum oldu ki, Beriyanın ən yaxın və aktiv məslək dostu M.C.Bağırov

olmuşdur ( 2, 112).

1953-cü ilin iyul ayından başlayaraq, Azərbaycan Kremlin göndərdiyi rəsmi məmurlar üçün açıq qapıya çevrildi. İyulun 12-də Azərbaycan KP MK-nın və Bakı Komitəsinin altıncı birləşmiş plenumunda Sov.İKP MK katibi P.Pospelov, Mərkəzi Təftiş Komissiyasının üzvü V.Moskoviski, Sov. İKP MK partiya, həmkarlar ittifaqı və komsomol orqanları şöbəsinin bölmə müdiri H.Şubin, Sov. İKP MK-nın təlimatçısı K.Trofimov peyda olmuşdular. Bu M.C.Bağırovun iştirak etdiyi son plenum idi və hər şeydən əvvəl, onu diz çökdürmək məqsədi güdürdü (5, 346).

Azərbaycan rəhbərinə qarşı sui-qəsd Kreml divarları arasında 1954-1956-cı illərdə Xruşşov-Mikoyan cütlüyü tərəfindən hazırlandı. Bu aktın həyata keçirilməsində M.C.Bağırovun 1939-41-ci illərdə Azərbaycan daxili işlər və təhlükəsizlik orqanlarından kənarlaşdırdığı əsli-nəcabəti bilinməyənlər canfəşanlıq göstərməyə başladılar. Məsələn, 1954-cü il mart ayının 11-də Sov.İKP üzvü Pavel Vladimiroviç Xentov Sov. İKP MK katibi N.S.Xruşşova və Azərbaycan KP MK-nın katibi İ.D.Mustafayevə müraciət etmişdi. O, 1939-cu ildə M.C.Bağırovun göstərişi ilə Yemelyanov tərəfindən Azərbaycan Dövlət Təhlükəsizliyi orqanlarından əsassız olaraq uzaqlaşdırıldığından şikayətlənirdi. Kim idi bu Xentov? Niyə Azərbaycandan qovulmuşdu? Dustaqların dindirilməsi prosesində onlara olmazın işgəncələr verdiyi üçün 1939-cu ildə təhlükəsizlik orqanlarından çıxarılmış və məhkəmənin hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum edilmişdi. M.C.Bağırovun düşmənini Kreml və Azərbaycan rəhbərləri məmnuniyyətlə DT orqanlarındakı işini bərpa etmiş, o da öz növbəsində Bağırovun ifşa olunmasında xüsusi xidmət göstərmişdir. M.C.Bağırovun məhkəməsinə dair Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanılan istintaq materiallarında Xentov şahid rolunda çıxış edir ( 5, 100).

M.C.Bağırov dövründə yetişmiş və şöhrət qazanmış nadir istedad sahiblərinin ona qarşı qoyulması Xruşşov-Mikoyan cütlüyünün, millətimizi gözü götürməyən qüvvələrin hiyləgər və məkrli siyasətindən irəli gəlirdi. 1945-ci ildə adı "qırmızı karandaşla" M.C.Bağırov tərəfindən Azərbaycanın ilk akademikləri siyahısına əlavə edilmiş böyük şairimiz Səməd Vurğun da həmin çirkin məqsədlə M.C.Bağırovun istintaq materiallarına salınmışdır. 1954-cü ildə N.Xruşşovun tapşırığı və İ.Mustafayevin razılığı ilə Azərbaycanın dövlət təhlükəsizliyi orqanlarında işlə təmin olunmuş P.V.Xentov "yüksək etimadı" şahid ifadəsi ilə doğrultmuşdur: "Mənə məlumdur ki, 1937-1938-ci illərdə Bağırovun sanksiyası ilə Azərbaycanın istedadlı şairi Səməd Vurğun həbs edilibmiş. Xarakterikdir ki, istintaqın gedişində ondan heç bir şey əldə edə bilmədikdə, Bağırov allah tərəfindən göndərilmiş xilaskar rolunda çıxış etdi və onu həbsdən özü azad etdi. Ancaq onun əleyhinə material toplamağa da özü icazə verdi. Yemelyanov 1952-ci ilə qədər bu işlə məşğul olurdu" (5, 100).

Azərbaycanın dövlət arxivlərində saxlanılan neçə-neçə sənəd və material sübut edir ki, M.C.Bağırov Səməd Vurğunun bədxahı deyil, xilaskarı olmuş-

dur. Bu barədə "Düşmənlərindən güclü şəxsiyyət"də (birinci kitab, səh.148-158) müfəssəl bəhs olunmuşdur (5, 100).

Eyni zamanda istintaq zamanı müəyyən olunmuşdur ki, Bağırov və onun "uçağan" dəstədən olan yaxın adamları cinayətkar əksinqilabi Daşnaksutyun təşkilatının rəhbərlərindən olan, Quba şəhəri əhalisinin kütləvi şəkildə qırılmasının və orada soyğunçuluq və qarətlərin törədilməsinin təşkilatçısı kimi tanınmış Amazaspın daşnak dəstəsinin üzvü olmuşdur. Bağırovun şəxsi sənədlərində "uçağan" partizan dəstəsi adlandırdığı bandit qrupunun cinayətkar fəaliyyəti barədə buna bənzər ifadələri istintaq zamanı şahid sifətilə dindirilən Ağaxanov Harun Şahbala oğlu, Şahverdiyev Hacı Ağa İbrahim oğlu, Musayeva Q.M., Ağayeva İ.D. və başqaları da təsdiq etdilər, yəni M.C.Bağırov ermənilərə meyilli imiş (4, 48). Lakin M.C.Bağırov dövründə Azərbaycan KP MK-nın ikinci katibi vəzifəsində işləmiş Mirhəsən Seyidovun 1999-2000-ci illərdə "Haşe vremya" jurnalında dərc olunmuş əlyazmaları Mir Cəfər Bağırovun "ermənilərə meylli olması" fikrini alt-üst edir, yaxud uydurma olduğunu sübut edir. Əlyazmalarda göstərilir: "M.C.Bağırova qədər Mərkəzi Komitə aparatının yarıdan çoxu ermənilərdən və başqa millətlərdən idi. Hətta Azərbaycanın Moskvadakı rəsmi nümayəndəsi də erməni Karqanov idi. Kadrların yerləşdirilməsinə Moskvada erməni diasporunun başçısı, hakimiyyətin ən yüksək eşalonunda nüfuzu olan, Siyasi Büronun üzvü, Böyük Ermənistan ideyasını həmişə ürəyində gəzdirən, Azərbaycan xalqının ən qəddar düşməni A.İ.Mikoyan kadrların yetişdirilməsinə ən güclü şəkildə təsir göstərirdi. Mikoyan təkcə Azərbaycanda deyil, bütün Sovet İttifaqında nomenklaturaya daxil olan erməni kadrların irəli çəkilməsi məsələsini ciddi nəzarətdə saxlayırdı. Xüsusilə Azərbaycanda erməni mənşəli məsul işçilərin hər hansı yerdəyişməsi məsələsinə çox fəal, bəzən də olduqca sərt şəkildə müdaxilə edirdi. Buna görə də, M.C.Bağırov erməni millətindən olan hər hansı bir məsul işçidən yaxa qurtarmaq üçün bu adamı başqa vəzifəyə qoyurdu. Məsələn, 1942-ci ilə qədər Azərbaycan SSR Xalq Komissarları Soveti sədrinin birinci müavini olmuş A.Ağababovu rəhbər işə göndərib, Əziz Əliyevin təqdimatı ilə Dağıstan Vilayət Partiya Komitəsinin ikinci katibi təsdiq etdirərkən, Azərbaycan dövlət təhlükəsizlik orqanlarında məsul vəzifə tutan Markaryanı Dağıstan dövlət təhlükəsizlik orqanlarına rəhbər vəzifəyə irəli sürərkən, Azərbaycan daxili işlər nazirinin birinci müavini X.Qriqoryanı Ermənistan SSR Daxili işlər naziri vəzifəsinə tövsiyə edərkən M.C.Bağırov bu üsula əl atmışdı" (5, 320).

Lakin 50-ci illərin əvvəllərindən başlayaraq M.C.Bağırov hakimiyyətinin tənqidi fonunda Moskvanın isti münasibəti nəinki Bakıda və Dağlıq Qarabağda, habelə xaricdə yaşayan erməniləri daha da fəallaşdırdı. İkinci dünya müharibəsindən sonra Azərbaycana və digər qonşu dövlətlərə qarşı ərazi iddiaları ilə çıxış edən xarici erməni təşkilatları 50-ci illərin əvvəllərindən başlayaraq tədricən sovet xüsusi xidmət orqanlarının və Sov. İKP MK-nın nəzarətinə düşməkdə idi. Hələ 1952-ci ilin yanvar ayının 15-də Sov. İKP MK-nın Siyasi Bürosu SSRİ Xarici İşlər Nazirliyinin və xarici siyasət

komissiyasının təklifi ilə Fransa ermənilərinin mədəniyyət cəmiyyətinə "Lusarsax" qəzetini nəşr etmək üçün yalnız 1952-ci ildə 40 600 rubl məbləğində maliyyə yardımı göstərilməsi barədə gizli qərar qəbul etmişdi. Pul SSRİ-nin Parisdəki Səfirliyinin hesabına köçürülmüş, oradan da qeyd edilən ünvana çatdırılmışdı. Şübhəsiz ki, pul verən tərəf kimi "Lusarsax" qəzetinin nələr yazması, Qarabağın, eləcə də regionun tarixini saxtalaşdırması, Dağlıq Qarabağa qarşı ərazi iddiaları ilə çıxış etməsi Sov.İKP MK rəhbərliyi üçün sirr deyildi. Bu isti münasibəti hiss edən ermənilər də öz fəallıqlarını artırmışdılar. Onlar 1949-cu ildən fəaliyyətini dayandırmış Bakı erməni teatrının bərpası, Bakıda erməni dilində ədəbi jurnal buraxılması və s. məsələlərlə bağlı Moskvaya çoxsaylı müraciətlər göndərmişdilər (1, 22). M.C.Bağırovun 1947-ci ildə Bakıdan qovduğu Marietta Şaginyanlar açıq-aşkar Qarabağa əl uzatmağa başlamışlar. Qudurğanlıq o həddə çatmışdır ki, Bakıya səfər etmiş erməni katalikosu II Vazgen Azərbaycan rəhbərliyi ilə söhbətində Dağlıq Qarabağın Ermənistana verilməsi təklifini həyasızcasına qaldırmışdır. Bakıda erməni ruhani seminariyasının açılmasını, hər səhər Bakının mərkəzində yerləşən erməni kilsəsinin zəng vurmasına rəsmi şəkildə icazə verilməsini çəkinmədən təklif etmişdir (1, 465).

Göründüyü kimi, son illərin arxiv araşdırması sübut edir ki, M.C.Bağırov heç də ermənilərə meylli olmayıbmış, əksinə onlara qarşı bacardığı qədər mübarizə aparıb, ən yüksək vəzifələrdən uzaqlaşdırmağa nail olmuşdur. Yalnız 50-ci illərin əvvəllərindən başlayaraq M.C.Bağırov dövrünün tənqidi ilə əlaqədar olaraq ermənilər yenidən qəsbkarlıq planlarında əl-qol açırlar.

1956-cı ilin aprel ayında M.C.Bağırov xalq düşməni elan edilib ölüm cəzasına-güllələnməyə məhkum olundu. Onun mühakimə olunduğu məhkəmə iclaslarının materiallarında M.C.Bağırov Azərbaycan Cümhuriyyəti dövründə Quba qəzasının komissarı Əli bəyin müavini olmaqla, onunla birlikdə Quba şəhərində erməni əhalisinə divan tutulmasında iştirakda təqsirləndirilmiş, Lavrenti Beriyaya dair sənədləri gizlətməkdə və ləğv etməkdə ittiham olunmuşdur (2, 112). Yalançı şahidlərin quramaları sonralar Azərbaycan xalq yazıçılarının qaralamalarına çevrilmişdir. Azərbaycanın qətlə yetirilmiş ölməz zəka və cəsarət sahibi Ziya Bünyadov 1993-cü ildə "Qırmızı terror" kitabında yalançı şahidlərin yazdıqlarını əks etdirən arxiv sənədlərini ilk dəfə oxuculara çatdırmışdır. Təəsüflər olsun ki, Azərbaycanın tanınmış xalq yazıçıları sözün tam mənasında akademik Ziya Bünyadovdan nümunə götürməmiş, tarixi hadisələri uydurmalar əsasında qələmə almaqda davam etmişlər. 1956-cı ildə M.C.Bağırovun şər və böhtanlar əsasında qurulmuş məhkəməsindən sonra Azərbaycan ədəbiyyatında "Mir Cəfər"in "Mir Cəllad"a çevrilməsi tarixini Anar 2002-ci ildə "Nurlan" nəşriyyatı tərəfindən buraxılmış "Mübarizə bu gün də var" kitabında belə şərh edir: "Qızıl gül olmayaydı" poemasının ilk nüsxəsini makinada mən yazmışam. Çap edərkən "Bir cəllad bir cəlladın əlini sıxıb" misrasında "BİR" sözünün yerinə səhvən "MİR" yazmışdım və buna fikir də verməmişdim. Atam makina mətnini oxuyanda, "Mir Cəlladı" sən özün

tapmısan? - deyə təəccüblə soruşdu. Mən də eyni təəccüblə-yox, yox, “b” hərfi əvəzinə səhvən “m” hərfini vurmuşam - dedim. Atam fikrə getdi, sonra “yaxşı, qoy belə də qalsın” – dedi. Gənc Anarın “makina səhvi” neçə-neçə yaşlı ədibin və dramaturqun əsərinin baş mənfi obrazına çevrilmişdir (5, 67). Çox təəssüf ki, 2003-cü ildə Heydər Hüseynovun 68 yaşlı qızı Sara M.C.Bağırovun məhkəməsini davam etdirənlərin yalan iddialarına uyaraq atasının xilaskarı Mir Cəfəri “Mir Cəllad”adlandırmışdı (5, 191).

Beriyanın güllələnməsi və M.C.Bağırovun Azərbaycana rəhbərlikdən uzaqlaşdırılması tək ölkə daxilində deyil, Sovet İttifaqının hüdudlarından kənarda da böyük marağa səbəb olmuşdu. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi 1953-cü ilin avqust ayının 19-da M.C.Bağırov haqqında iki səhifəlik arayış hazırlamışdı. Beriyadan sonra Bağırov Daxili İşlər Nazirliyinin iş metodlarına yaxşı bələd olan adam idi. Stalin və Beriyanın pərəstişkarı kimi Bağırov Şərq siyasətçilliyinin bariz nümayəndəsi idi. O? Yaxın və Orta Şərqi, oranın xalqlarını, psixologiyasını və tarixini yaxşı bilirdi. Bağırov İranda, Türk Azərbaycanında və Yaxın Şərqin ərəb dövlətlərində diversiya işlərinin əsas təşkilatçısı idi. Sovet kəşfiyyatı bu regionda onunla birgə işləyirdi” (1, 13).

M.C.Bağırovun dövrü Sovet imperiyasının tüğyan etdiyi dövr idi. Amma bu o demək deyil ki, Cümhuriyyətdən sonra Azərbaycan və azərbaycanlılar naminə heç bir iş görülmədi. Nə qədər paradoksal görünsə də, M.C.Bağırov öz fəaliyyəti dövründə həmin dövlətçilik üçün bu və ya digər əməllərin yiyəsi idi. Məsələn, Cənubi Azərbaycanda milli kimlik dərkinin arxasında M.C.Bağırov dayanırdı. Sirr deyil ki, həmin illərdə Cənubda yaşayan azərbaycanlıların türkçülükdə Şimali Azərbaycandakılardan daha güclü israrı bu günə kimi davam edir. Bu isə asan və kiçik məsələ deyildi. Yaxud, Böyük Vətən müharibəsi illərində M.C.Bağırovu günahlandırırlar ki, bir gecədə əlli altı min azəri gəncinin məhvinə səbəb oldu. Düzdür, deyildiyi kimi, əlli altı min yox, heç bir təcrübəsi olmayan altmış min gənc bir gecədə müharibəyə səfərbər edildi və onlar həlak oldular. Amma bu qurban bahasına M.C.Bağırov həmin gecə Azərbaycandakı yerli əhalinin-aborigen türklərinin köçürülməsinin qarşısını aldı. O vaxt SSRİ rəhbərliyində belə bir qorxu var idi ki, Azərbaycanın əksər əhalisi türkdür, Türkiyə Almaniya ilə müttəfiqdir, azərbaycanlılar Türkiyə ilə birləşsə, arxa cəbhə yarılmış olar. Üstəlik, erməni Mikoyan Stalində türklərə inamsızlıq yaratmağa müvəffəq olmuşdu. Belə bir vəziyyətdə M.C.Bağırov altmış min insanı cəbhəyə səfərbər etdi. Ən parlaq göstərici isə Stalinin fikrini dəyişə bilib bütöv bir xalqı deportasiyadan xilas etdi ( 3, 6).

Mir Cəfər Bağırovun 1956-cı il məhkəməsini 40 il sonra davam etdirənlər söylədiklərini elə həmin məhkəmənin saxta materiallarına istinad edirlər, heç bir müfəssəl fakt və sənəd göstərmirlər. Təəssüflər olsun ki, bu gün də üzdəniraq tarixçilər “rus təşkilatlarının heysiyyətinə toxunmaq istəmirlər”, Şeyx Şamilin də, H.Hüseynovun da qisasını rus imperiyasından deyil, Mir Cəfər Bağırovdan almaqda davam edirlər (5, 296).

M.C.Bağırovun qondarma məhkəməsini 21-ci əsrdə də davam etdirənlər,

nəhayət, tarixi olduğu kimi oxucuya çatdırmalıdırlar.

### ƏDƏBİYYAT

1. Həsənli C. Azərbaycanda Milli Məsələ Siyasi rəhbərlik və ziyalılar 1954-1959. Bakı: Adiloğlu, 2008, 544s.
2. Zeynalov İ.X. Azərbaycanın ictimai-siyasi həyatı XX əsrin 50-ci illərində. Bakı: BDU, 2002
3. 525-ci qəzet, 2008, iyun.
4.Mir Cəfər Bağırovun məhkəməsi. Bakı: 1993
5. Qurban T. Düşmənlərindən güclü şəxsiyyət. Bakı: OL MMC, 2015, 364 s.

### УСТРАНЕНИЕ ОТ ВЛАСТИ М.ДЖ.БАГИРОВА

**Г.Я.АШРАФ**

### РЕЗЮМЕ

В научной статье, в основном, представлены обновления руководства после смерти Сталина в 50 годах XX века и связанные с этим изменения в политической жизни Азербайджана. Также обращается внимание на критику периода М.Дж.Багирова. В архивных материалах, приобретенных за последние годы личность М.Дж.Багирова оценивается автором как положительный руководитель.

**Ключевые слова:** Азербайджанский К(Б)П, враг народа, свидетель, руководитель, суд, перемещение, пленум, руководство

### MIR JAFAR BAGHIROV'S DISCHARGE FROM AUTHORITY

**G.Y.ASHRAF**

### SUMMARY

The paper deals with the renewal of authoruty changes made in the political life of Azerbaijan in the 50s of the XX century after Stalin's death. Criticism of Mir Jafar Baghirov's period is studied. Based on the archive documents, M.J.Bagirov's personality is appreciated positively as a leader.

**Key words:** Azerbaijan C(B)P, public enemy, witness, leader, court, deportation, plenary session, leadership